

# AZƏRBAYCANDA GEOLOJİ XİDMƏTİN YARANMASI VƏ TƏŞƏKKÜLÜ TARİXİNDƏN



**AĞAMAHMUD SƏMƏDOV**
*"Yer və İnsan" jurnalının redaktoru*

**EYZANGÜL QƏNBƏROVA**
*Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Geoloji İnformasiya Fondunun rəisi, yer elmləri üzrə fəlsəfə doktoru*

## REDAKSİYADAN

Bir qayda olaraq ölkəmizdə yer təkinin geoloji öyrənilməsi, mineral-xammal ehtiyatlarının qiymətləndirilməsi və kəşfiyyatının yekunlarına dair hesabatlarda iş aparılan ərazinin "geoloji öyrənilmə tarixi" ayrıca başlıq kimi verilir. Bunun da bir neçə səbəbi vardır;- iş aparılmış ərazidə əvvəllər mineral sərvətlərin aşkarlanması və istifadəsi, EGP (ekzogen geoloji proseslər) nəticəsində baş verə biləcək təhlükələrin irəlicədən qiymətləndirilməsi, müxtəlif dövrlərdə aparılmış geoloji tədqiqatların nəticələrinin müqayisəli səciyyəsi və ətraf mühitin mühafizəsi kimi məsələlər araşdırılır ki, bu həm elmi, həm də praktiki əhəmiyyət kəsb edir.

Bir çox hallarda geoloji hesabatlarda müəyyən ərazilərdə əvvəllər geoloji tədqiqat işləri aparmış təşkilatların adı və mənsubiyyəti qeyd olunarkan yanlışlığa yol verilir. Sonralar həmin hesabatlardan istifadə edən digər müəlliflər də qeyd olunan qüsuru davam etdirirlər.

Araşdırarkan Azərbaycanda son yüz ildə fəaliyyət göstərən geoloji xidmətin zəngin və maraqlı tarixi olduğunu gördük. Bu sahənin inkişafı xüsusilə neft sənayesinin formalaşması ilə sıx bağlıdır.

Azərbaycanda metal faydalı qazıntılarından istifadənin qədim tarixi olsa da orta əsrlərdən ta 19-cu əsrə qədər bu qəbildən olan işlər demək olar ki, görülməmişdi.

Ölkəmizdə sənaye üsulu ilə aparılan dağ-mədən işləri XIX əsrin ortalarından başlayaraq Gədəbəydə aparılmışdır.

Gədəbəy mədənlərinin işlənməsi isə Azərbaycanın sənaye və mədənçilik tarixində mühüm yer tutur. Bu mədənlər əsasən qızıl və mis ehtiyatları ilə tanınırdı və həmin dövrdən onların istismarına başlanıldı.

Bu dövrdə mədənləri almanlar icarəyə götürmüşdü. Xüsusilə Siemens qardaşları bu sahəyə böyük sərmayə yatırmışdı.

1864-cü ildə "Siemens" şirkəti Gədəbəydə ilk misəritmə zavodunu inşa etmişdi. 1873-cü ildə Gədəbəy-Qalakənd mis mədənini Tiflis şəhəri ilə birləşdirən teleqraf xətti çəkildi. O dövrdə bu çox möhtəşəm bir iş idi. "Siemens" şirkəti burada zavodlardan başqa yaşayış evləri, məktəb və xəstəxana da tikmişdi.

Ümumiyyətlə, XIX əsri Azərbaycanda sənaye geologiyasının başlanğıcı hesab etmək olar. Gədəbəy mədənlərində filiz çıxarılma işləri 1914-cü ildə başlanan I Dünya müharibəsindən sonra dayandırılmışdı.

1920-ci ildə Azərbaycan Sovet Sosialist Respublikası qurulduqdan sonra Gədəbəy mədənləri milliləşdirildi.

Bu səbəbdən aşağıdakı yazını təqdim edən müəlliflər Azərbaycanda son 100 ildə fəaliyyət göstərən geoloji xidmətlərin müxtəsər tarixi barədə məlumatı hazırlamağı zəruri hesab etmişlər. Yazı hazırlanarkan Azərbaycan Respublikasının Milli Arxiv İdarəsinin materiallarından istifadə olunmuşdur.

***"Yer və insan"***

Azərbaycan Respublikasının ərazisi mürəkkəb geoloji quruluşunun olması və faydalı qazıntıların çeşidli, həm də rəngarəngliliyi ilə qonşu ölkələrinkindən fərqlənir.

Öz nefti ilə dünyada məşhur olan Azərbaycan Respublikası həm də müxtəlif metalların (dəmir, alüminium, mis, sink, qurğuşun, qızıl və s), qeyri-metalların (dağ-kimyəvi, xörək duzu, aqrokimyəvi xammallar və s.) və tikinti materialları kimi faydalı qazıntı yataqları ilə də zəngindir.

Azərbaycan ərazisinin müxtəlif faydalı qazıntılarla zəngin olması burada geologiya elminin qədimdən intişar tapmasına zəmin yaratmışdır. Geoloji əmələgəlmələr və hadisələr haqqında ilk məlumatlara qədim və orta əsr mənbələrində, o dövrün məşhur alim, səyyah və mütəfəkkirlərinin (Strabon, İstəxri, Məsudi, Marko Polo və b.) əsərlərində rast gəlinir. Lakin geologiya müstəqil elm kimi 18-ci əsrin ikinci – 19-cu əsrin birinci yarısından etibarən formalaşmağa başlamışdır. Bu dövrdə ölkə ərazisinin, xüsusilə də onun neft-qaz və başqa faydalı qazıntı yataqlarının daha geniş yayıldığı sahələr bir sıra tanınmış səyyah və təbiətşünaslar tərəfindən geoloji cəhətdən öyrənilmişdir. 19-cu əsrin 2-ci yarısından başlayaraq respublika ərazisində geoloji tədqiqatlar qismən məqsədyönlü şəkildə aparılmış və onların əhatə dairəsi xeyli genişlənmişdir.

1851-1900-cu illərdə aparılmış geoloji müşahidə materiallarında bir sıra filiz, qeyri-filiz və yanar faydalı qazıntı yığımları və təzahürlərinin yayıldığı ərazilərin geoloji quruluşunun təsviri verilmiş, onların mənşəyi və perspektivliliyi öyrənilmiş, müxtəlif geoloji hadisələr haqqında nəzəri fikirlər söylənilmişdir.

Bu dövrdə ərazinin geoloji quruluşu haqqında ilk əsərlər nəşr olunmuş, neftin qeyri-üzvi mənşəli olması fərziyyəsi söylənilmişdir. Gədəbəydə, Daşkəsəndə və Naxçıvanda mədən-filiz müəssisələri yaradılmış, taxta dirək özüllərdən quyuların qazılması yolu ilə dəniz neft yataqlarının işlənməsi ideyası irəli sürülmüşdür.

1871-ci ildə Qafqaz Mədən İdarəsinin təşkil olunmasının Azərbaycanda geoloji fikirlərin inkişafında mühüm əhəmiyyəti olmuşdur.

1901-1920-ci illərdə geoloji tədqiqatlar qismən genişlənmiş, yanar, filiz və qeyri- filiz faydalı qazıntıların yayıldığı ərazilərin geologiyası öyrənilmişdir.

Azərbaycanın geoloji cəhətdən ətraflı öyrənilməsinə 1920-ci ildən sonra başlanılmışdır. Azərbaycan SSR Ali İqtisadi Şurasının 3 yanvar 1932-ci il tarixli 5 nömrəli qərarı əsasında 03 yanvar 1932-ci ildə Azərbaycan SSR Ali İqtisadi Şurası yanında Zaqafqaziya Geoloji Kəşfiyyat İdarəsinin Azərbaycan Bazası yaradılmış və onun tərkibində Geoloji Fond təşkil edilmişdir.

Azərbaycan SSR Xalq Komissarlar Sovetinin 30 dekabr 1936-cı il tarixli 3240 nömrəli Qərarı əsasında SSRİ Ağır Sənaye Xalq Komissarlığının Baş Geologiya İdarəsi yanında təsərrüfat hesablı Geoloji Kəşfiyyat Kontoru və onun nəzdində Ümumittifaq Geoloji Fondunun Azərbaycan şöbəsi yaradılmışdır.

SSRİ Ağır Sənaye Komissarlığının Baş Geologiya İdarəsinin 13 avqust 1938-ci il tarixli 405 nömrəli əmri əsasında keçmiş Zaqafqaziya Geologiya Trestinin Azərbaycan Geologiya Bürosu bazasında Azərbaycan SSR Geologiya İdarəsi (1938-1939) yaradılmışdır. Azərbaycan SSR ərazisində fəaliyyət göstərən bütün geoloji təşkilatlar Geologiya İdarəsinə tabe etdirilmiş, icra olunacaq bütün işlərin funksiyaları müəyyənləşdirilmişdir. Geologiya İdarəsinin Aparat işçilərinin ştat sayı 63 nəfər təsdiq olunmuşdur. Aparatda rəhbətlik (rəis, baş mühəndis), istehsalat, plan, əmək və əməkhaqqı, təchizat, inzibati-təsərrüfat şöbələri və Ümumittifaq Geoloji Fondunun şöbəsi olmuşdur. Geologiya İdarəsində 1938-ci ildə 41 partiya fəaliyyət göstərmişdir.

“SSRİ-də Geoloji Xidmətin təşkil olunması barədə SSRİ Xalq komissarları Sovetinin 03 iyul 1939-cu il tarixli 977 nömrəli Qərarı ilə Azərbaycan Geologiya İdarəsi (1939-1949) SSRİ Xalq Komissarları Sovetinin Geoloji İşlər üzrə Komitəsinin tabeçiliyinə verilmişdir. SSRİ Xalq Komissarları Sovetinin Geoloji İşlər üzrə Komitəsi 1946-cı il 14 iyundan SSRİ Geologiya Nazirliyi adlandırılmış və Azərbaycan Geologiya İdarəsi də yeni yaradılan Nazirliyin tabeçiliyinə verilmişdir.

Qonşu Dağıstan Muxtar Respublikası ərazisində geoloji işlərin aparılması məqsədi ilə SSRİ XKS-nin 20 sentyabr 1945-ci il tarixli qərarı ilə Azərbaycan Geologiya İdarəsinin tərkibində Dağıstan bölməsi yaradılmışdır.

15 sentyabr 1948-ci il tarixdə Azərbaycan Geologiya İdarəsinin Dağıstan Bölməsi ləğv olunmuş və maddi dəyərləri Azərbaycan Geologiya İdarəsinin balansına verilmişdir.

SSRİ Nazirlər Sovetinin “Geologiya Nazirliyinin strukturu haqqında” 25 iyun 1949-cu il tarixli, 2708 nömrəli qərarının icra olunması və Geologiya Nazirliyinin 28 iyun 1949-cu il tarixli 248 nömrəli əmri ilə Azərbaycan Geologiya İdarəsi Tiflisdə yerləşən Zaqafqaziya Geologiya İdarəsinin tərkibinə daxil edilmişdir. Keçmiş Geologiya İdarəsinin bazasında respublika ərazilərində

fəaliyyət göstərən Geoloji Ekspedisiya yaradılmışdır.

Azərbaycan Geologiya İdarəsinə müxtəlif vaxtlarda Q.Dalakyan, A.Kalandadze, Musa Əliyev, İbrahim Şirvanzadə, Səttar Süleymanov rəhbərlik etmişdir.

Baş mühəndis vəzifəsində Musa Əliyev, İbrahim Şirvanzadə, Səttar Süleymanov, Hacı Kərimov, Kamil Biaçuyev işləmişdir.

SSRİ Nazirlər Sovetinin “Geologiya Nazirliyinin Orta Asiya və Zaqafqaziya respublikalarında geologiya idarələrinin yaradılmasının təşkili” ilə bağlı 25 aprel 1950-ci il tarixli 1653 nömrəli qərarı ilə Azərbaycan Geologiya İdarəsi yaradılmışdır.

10 may 1950-ci ildə Azərbaycan Geologiya İdarəsinin nizamnaməsinə uyğun olaraq Geoloji Fond təsis olunmuşdur.

Azərbaycan Geologiya İdarəsinin (1950-1957) tərkibinə 24 partiya və ekspedisiya daxil edilmişdir (Hamamçay, Ordubad, Toğanalı, Pyezokvarsın öyrənilməsi, Samur, Kür-Araz, Lisaqor dəstəsi, Kəlbəcər, Kür-Araz ovalığının rejim müşahidə partiyası, Dərin buruq qazma partiyası, Samuryanı, Sulakyanı, Muğan-Salyan, Dayaz Quyuların Qazma Partiyası, Darrıdağ, Abşeron Hidrogeologu Stansiyası, Abşeron GPP, Kür-Araz ovalığındakı kanallar boyunca mühəndis geoloji işlərin aparılması, Cənub-şərq, Şirvan, Laçın, Zəyəm, Azərbaycan planalma, Qroznı, əvvəlki illərdə Kür-Arazda aparılmış işlərin yekun hesabatı).

01 iyul 1950-ci ilə Azərbaycan Geologiya İdarəsində 84 nəfər ali təhsilli, 15 nəfər orta ixtisas təhsilli, 6 nəfər elmlər namizədi işləmişdi.

SSRİ Ali Soveti Rəyasət Heyətinin “Geologiya Nazirliyinin ləğv olunması ilə bağlı” 15 mart 1953-cü il tarixli, 1147-473 nömrəli Qərarı ilə “Keçmiş SSRİ Geologiya Nazirliyinin funksiyaları və təşkilatlarının digər nazirliklərə verilməsi haqqında” Qərarını təsdiq etmiş və buna uyğun olaraq Azərbaycan Geologiya İdarəsinin tabeçiliyində olan geoloji, təsərrüfat və digər işlər yerli Sənaye Nazirliyinə verilmiş, 9 partiya isə iş prinsipinə uyğun olaraq Kimya Sənayesi, Elektrik Stansiyaları və Elektrik Sənayesi və İnşaat Materialları nazirliklərinə verilmişdi. Həmin vaxt Geologiya İdarəsində 973 nəfər işçi ver idi; onlardan 74 nəfəri ali təhsilli və 35 nəfəri orta ixtisas təhsilli idi.

01 iyul 1953-cü ildə Ümumittifaq Geologiya və Yer Təkinin Mühafizəsi Nazirliyinin yaranması ilə əlaqədar Azərbaycan Geologiya İdarəsi də onun tərkibinə daxil edilmiş və əvvəllər digər nazirliklərə verilmiş struktur bölmələri də yenidən Geologiya İdarəsinə qaytarılmışdı. Geologiya İdarəsinə 18 ekspedisiya və partiya (Naxçıvan, Mehmana, Başkənd, Gümüşlü, Ordubad, Biçənək, Laçın, Naxçıvan, Zəyəm, Çiragidzor, Qarabağ, Azərbaycan inşaat materialları, Azərbaycan., Yuxarı Samur, Şaitli, Axtıçay, Çujandoy, Samuryanı).

SSRİ Geologiya və Yer Təkinin Mühafizəsi Nazirliyinin 08 aprel 1954-cü il tarixli, 309 nömrəli Əmri ilə Azərbaycan Əlvan Metal Kəşfiyyatı Ekspedisiyası Azərbaycan Geologiya İdarəsinin tərkibinə verildi.

1955-ci ilin iyununda Parağaçay Geologi Kəşfiyyat Partiyası Geologiya İdarəsinin tabeçiliyindən çıxarılaraq SSRİ Əlvan Metallurgiya Nazirliyinin tərkibinə qatıldı.

SSRİ Geologiya və Yer Təkinin Mühafizəsi Nazirliyinin 10 iyul 1957-ci il tarixli 355 nömrəli və Azərbaycan Geologiya İdarəsinin 02 noyabr 1957-ci il tarixli 293 nömrəli qərarı ilə Azərbaycan Geologiya İdarəsi Azərbaycan SSR Geologiya və Yer Təkinin Mühafizəsi İdarəsi (1957-1964) adlandırılmışdır.

Geologiya və Yer Təkinin Mühafizəsi İdarəsində 01 yanvar 1956-cı ilə işçilərin sayı 1615 nəfər idi, o cümlədən 205 nəfər ali təhsilli, 64 nəfər isə orta ixtisas təhsilli idi. İdarə rəisi S.M.Süleymanov, R.N.Abdullayev, M.A.Mustafabəyli olmuşdu.

01 yanvar 1957-ci ildə Geologiya İdarəsi işçilərinin sayı 2248 nəfər, o cümlədən 246 ali təhsilli, 67 orta ixtisas təhsilli idi.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 16 oktyabr 1964-cü il tarixli Fərmanı ilə Azərbaycan Geologiya və Yer təkinin Mühafizəsi İdarəsi Azərbaycan SSR Dövlət Geoloji İstehsalat Komitəsi (1964-1965) adlandırıldı. Yeni yaradılmış Komitənin tərkibinə əvvəlki İdarədə olan bütün təşkilatlar daxil edildi. 15 noyabr 1964-cü ilə Komitədə olan işçilərin sayı 3592 nəfər, o cümlədən 383 nəfər ali təhsilli, 112 nəfər orta ixtisas təhsilli, 6 nəfər elmlər namizədi olmuşdu.

Komitənin sədri M.A.Mustafabəyli, baş mühəndis R.G.Vəkilov, baş geoloq N.Y.Quxman olmuşdur.

Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi və SSRİ Nazirlər Sovetinin “Sənayenin idarə edilməsinin yaxşılaşdırılması” barədə 30 sentyabr 1965-ci il tarixli 728 nömrəli Qərarına və Azərbaycan SSR-in “Sənaye idarəçiliyi orqanları sistemində dəyişiklik edilməsi və bəzi dövlət idarəçiliyi orqanlarının yenidən yaradılması” barədə 20 oktyabr 1965-ci il tarixli Qanununa əsasən Azərbaycan SSR Dövlətgeolkomun bazasında respublika-ittifaq tabeçiliyində olan Azərbaycan SSR Nazirlər Sovetinin Geologiya İdarəsi (1965-1979) yaradılmışdır. Keçmiş Dövlət Geoloji İstehsalat Komitəsinin tabeli təşkilatları-ekspedisiya və

partiyaları yeni yaradılmış İdarənin tabeçiliyinə verilmişdir.

İdarəninn tərkibində Daşkəsən Geoloji Kəşfiyyat, Azərbaycan Geofiziki, Azərbaycan Geoloji Planalma, Mərkəzi, Hidrogeologiya və Mühəndis Geologiyası (Abşeron, Azərbaycan və Lənkəran partiyaları) ekspedisiyaları, Buruq Qazma Ekspedisiyası, Qapıcıq, Filizçay, Ağduzdaq, Azərbaycan, Ağyataq, Vejnəli, Pyəzbaşı, Ağcakənd və Katexçay geoloji kəşfiyyat partiyaları, Azərbaycan Hidrogeoloji partiyası, İdarənin nəzdində Mərkəzi Mexaniki Təmir Emalatxanası, Maddi-Texniki Təchizat kontoru və b. təşkilatlar mövcud olmuşdur.

Sonralar İdarənin təşkilati strukturunda dəyişiklik edildi. 1972-ci ildən Baş Qafqaz, Qazax, Qarabağ və Naxçıvan Geoloji Kəşfiyyat Ekspedisiyaları, Kompleks Geoloji, Azərbaycan Hidrogeoloji Ekspedisiyaları yaradıldı. 1975-ci ildən adıçəkilən ekspedisiyalardan başqa Kiçik Qafqaz Ekspedisiyası yaradıldı (Qarabağ və Qazax ekspedisiyaları ləğv edildi).

15 noyabr 1975-ci ildə İdarə sistemində çalışan insanların sayı 3728 idi, o cümlədən 647 nəfər ali təhsilli, 254 nəfər orta ixtisas təhsilli mütəxəssislər və 32 elmlər namizədi olmuşdu.

5 illik dövlət plan və tapşırıqlarının uğurla yerinə yetirilməsinə görə Azərbaycan  geologiya xidmətinin bir sıra işçiləri – fəhlə, qulluqçu, rəhbər işçiləri və mühəndis texnik kadrları təltif və fəxri adlara layiq görülmüşdülər.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 04 iyul 1966-cı il tarixli 5206-VI nömrəli Fərmanı ilə yeddiillik planı vaxtından əvvəl yerinə yetirdiyinə, faydalı qazıntı yatağının kəşfiyyatında böyük xidmətlərinə görə Daşkəsən Geoloji Kəşfiyyat Ekspedisiyasının buruq ustası Məmmədov Abbas Zaman oğlu Sosialist Əməyi Qəhrəmanı adına və Lenin ordeninə layiq görülmüşdü.

20 iyul 1977-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə “Azərbaycan SSR Əməkdar geoloqu” fəxri adı təsis olundu. Bu fəxri ad geoloji təşkilatlarda, elmi tədqiqat institutlarında  seçilən xidmətlərinə, faydalı qazıntı yataqlarının kəşfiyyatında göstərdiyi xidmətlərinə və geoloji kadrların hazırlanmasında fəaliyyətinə görə verilirdi.

31 oktyabr 1975-ci il tarixli 354 nömrəli Azərbaycan SSR Nazirlər Sovetinin Qərarı ilə Geoloji İdarə işçiləri Kollegiya üzvləri seçilmişdi.

Geologiya İdarəsinin rəisi A.S.Bayramov, Ə.M.Şəkinski, baş mühəndis R.M.Vəkilov, İ.İ.Tağıyev, baş geoloq T.H.Hacıyev, S.Ə.Bəktaşi olmuşdu.

SSRİ Nazirlər Sovetinin 01 iyul 1978-ci il tarixli 433 nömrəli “Geologiya İdarələrinin və Yer Təki Kəşfiyyatının idarəçiliyinin Baş sxemi “Siemens”  barədə Qərarı ilə Azərbaycan SSR Nazirlər Sovetinin Geologiya İdarəsi ittifaq-respublika tabeçiliyində olan Azərbaycan SSR Geologiya İdarəsi (1979-1987) adlandırıldı. Yeni yaradılmış qurumun tərkibinə Azərbaycan SSR Nazirlər Soveti Geologiya İdarəsinin bütün sahələri daxil edildi. Beləliklə, Respublikanın mineral-xammal bazasının yenidən inkişaf etdirilməsi və genişləndirilməsi üçün zəmin yaradıldı. Geologiya İdarəsində 1980-ci ildə Baş Qafqaz, Kiçik Qafqaz, Naxçıvan Geoloji Kəşfiyyat Ekspedisiyaları, Kompleks Geologiya və Azərbaycan Hidrogeoloji ekspedisiyaları, Sənaye və Termal Suların Axtarışı və Kəşfiyyatı üzrə Ekspedisiya, İdarənin tərkibində 72 partiya, Mərkəzi laboratoriya, Mərkəzi Mexaniki Təmir Emalatxanası, Maddi Texniki Təchizat Kontoru və b. müəssisələr fəaliyyətdə idi.

“Azərbaycan SSR Xəzər dənizi sahilində ümumittifaq əhəmiyyətli kurort zonasının yaradılması ilə bağlı” SSRİ Nazirlər Sovetinin 24 aprel 1983-cü il tarixli 375 nömrəli sərəncamının yerinə yetirilməsi məqsədi ilə SSRİ Geologiya Nazirliyinin 11 may 1983-cü il tarixli 213 nömrəli əmri ilə Azərbaycan SSR Geologiya İdarəsi 1983-1985-ci illərdə Xəzər dənizinin sahilində ümumittifaq nazirlik və idarələrinin tapşırıqlarına uyğun olaraq yeraltı şirin, mineral və termal sulara axtarış - kəşfiyyat işləri aparılmışdır.

1985-ci ildə Geologiya İdarəsində yuxarıda göstərilən ekspedisiyalardan başqa Geologi Axtarış və Geofiziki ekspedisiyalar, Mərkəzi Laboratoriya, Mərkəzi Mexaniki Təmir Emalatxanası, Maddi Texniki Təchizat Kontoru da var idi.

Geoloji ekspedisiyalarda 76 müxtəlif partiyalar fəaliyyətdə idi.

15 noyabr 1985-ci ildə Geologiya İdarəsi və onun təşkilatlarında 4342 nəfər, o cümlədən 840 ali təhsilli, 367 nəfər isə orta ixtisas təhsilli mütəxəssislər, 2 elmlər doktoru və 28 elmlər namizədi vardı.

Geologiya İdarəsinin rəisi Ə.M.Şəkinski, baş mühəndis İ.İ.Tağıyev, baş geoloq  S.Ə.Bəktaşi, Ə.F. Kərimov olmuşdu.

SSRİ Geologiya Nazirliyinin 9 oktyabr 1987- ci il tarixli 547 nömrəli Əmri və  Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 15 oktyabr 1987-ci il tarixli Fərmanı ilə Geoloji Kəşfiyyat işləri üzrə Azərbaycan İstehsalat Birliyi (“Azərbaycangeologiya” İB) (1987-1991) yaradılmışdı. İstehsalat Birliyinin Geoloji Fondu Məhəlli Geoloji Fond adlandırılmışdır.

Azərbaycan  Respublikası Prezidentinin 05 avqust

1991-ci il tarixli 300 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Geologiya və Mineral Ehtiyatlar üzrə Dövlət Komitəsi ("Dövlətgeolkom") (1991-2001) yaradılmışdır. Komitənin nəzdindəki Geoloji Fond Geoloji İnformasiya Fondu adlandırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 23 may 2001-ci il tarixli, 485 nömrəli Fərmanı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılması ilə əlaqədar Azərbaycan Respublikasının Geologiya və Mineral Ehtiyatlar üzrə Dövlət Komitəsi ləğv olunmuş və onun funksiyası yeni yaradılmış nazirliyə tapşırılmışdır. Nazirliyin 5 dekabr 2001-ci il tarixli 185/ü №-li əmri ilə Milli Geoloji Kəşfiyyat Xidməti (2001-2022) yaradılmışdır.

Geoloji Xidmət Azərbaycan Respublikası ərazisində yer təkinin geoloji öyrənilməsi, faydalı qazıntı yataqlarının axtarışını, kəşfiyyatını, onların resurs və ehtiyatlarının hesablanmasını, yerin dərinlik quruluşunun, seysmohidrogeodinamik şəraitin və digər təbii hadisələrin öyrənilməsini, həmçinin geoloji fəaliyyət zamanı qanunvericiliyin icrasına operativ nəzarəti həyata keçirən hüquqi şəxs statuslu dövlət orqanı olmuşdur.

Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin 28 noyabr 2001-ci il tarixli, 139 nömrəli əmrinə əsasən sərbəst qurum kimi Ətraf Mühit və Təbii Sərvətlər üzrə Dövlət İnformasiya və Arxiv Fondu (2001-2019) yaradılmışdır.

İnformasiya-Arxiv Fondu ətraf mühit və təbii sərvətlər üzrə vahid informasiya sisteminin formalaşması, bərpası, idarə edilməsi, qorunması və dövlət məlumatlar fondunun yaradılması sahəsində fəaliyyəti həyata keçirən Dövlət müəssisəsi kimi fəaliyyət göstərmişdir.

Azərbaycan Respublikası Prezidentinin 16 yanvar 2019-cu il tarixli Fərmanı ilə Ətraf Mühit və Təbii Sərvətlər üzrə Dövlət İnformasiya və Arxiv Fondu Geoloji İnformasiya Fondu adı ilə Milli Geoloji Kəşfiyyat Xidmətinin şöbəsi olaraq fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2022-ci il tarixli Fərmanı ilə Ekolgiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Kəşfiyyat Agentliyi (2022-hal-hazıradək) təsis olunmuşdur.

Agentlik Azərbaycan Respublikası ərazisində geoloji tədqiqatların sistemləşdirilməsi, faydalı qazıntı yataqlarının axtarışı və kəşfiyyatı, yerin dərinlik quruluşunun öyrənilməsi kimi sahələrdə fəaliyyət göstərir.

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 2022-ci il 28 dekabr tarixli 4/01 nömrəli Qərarı ilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Geoloji İnformasiya Fondu yaradılmışdır.

Fondun əsas funksiyası geoloji informasiya sisteminin formalaşması, bərpası, qorunması və məlumatlar fondunun yaradılmasından ibarətdir. Yerin təki haqqında geoloji informasiya əsasən yerin təkini səciyyələndirən və geoloji-kəşfiyyat, elmi tədqiqat, tematik, istismar və başqa işlər prosesində əldə edilən geoloji, geofiziki, geokimyəvi, geoekoloji, mühəndis-geoloji, hidrogeoloji, aero və kosmofotogeoloji və digər məlumatı əks etdirən hesabatlar, müxtəlif ölçülü xəritələr və cizgi əlavələrinin və Faydalı Qazıntı Ehtiyatları Komissiyasının Protokollarının qəbulu, yoxlanılması, sistemləşdirilərək (inventarlaşdırılma və kataloqlaşdırılma) saxlanılması və qanunamüvafiq qaydada istifadəsi, mübadiləsindən ibarətdir.

Yuxarıda biz son 100 ildə ölkəmizin ərazilərində fəaliyyət göstərən geoloji qurumların yaranma tarixi barədə müxtəsər məlumat verdik. Təbii sual yarana bilər, bəs bu qurumların fəaliyyətinin nəticəsi necə olmuşdur?

Mineral-xammal bazasının etibarlılığı və iqtisadi potensialın artımı, bir qayda olaraq, ərazinin geoloji öyrənilmə dərəcəsindən, xalq təsərrüfatının müxtəlif sahələrinin ehtiyacı üçün lazım olan mineral-xammal ehtiyatlarının olması və onlardan istifadə edilməsi ilə müəyyənləşir.

Yerin təkində təşəkkül tapmış mineral-xammal ehtiyatları ümumi təbii sərvətlərin tərkib hissəsi olmaqla, hər bir dövlətin iqtisadi, sosial-siyasi və müdafiə müstəqilliyini müəyyən edən amillərdəndir.

Hazırda ölkəmizdə Azərbaycan Respublikasının xalq təsərrüfatının müxtəlif sahələrinin siyasi və iqtisadi suverenlik şəraitində mineral-xammal ehtiyatları ilə təmin edilməsinə dövlətimizin milli siyasəti səviyyəsində baxılmaqdadır.

Son yüz ildə Azərbaycan ərazilərində aparılmış geoloji-kəşfiyyat işləri nəticəsində respublika iqtisadiyyatının mineral- xammaldan istifadəyə əsaslanan bir sıra sahələrinin stabil inkişafını, mineral-xammala artmaqda olan tələbatın ödənilməsini, respublika müəssisələrinin digər ölkələrdən xammal asılılığını aradan qaldırılmasını təmin edən etibarlı baza yaradılmışdır.

Respublikanın mineral-xammal bazasının formalaşdırılmasına 30-40-cı illərdən başlanmış, bu işlər dağ-filiz rayonlarında aparılan ilkin axtarışla Daşkəsən dəmir filizi, Zəylik alunit, Şimal Daşkəsən kobalt, Mehmana polimetal, Parağaçay molibden və Gədəbəy mis filizləri yataqlarında aparılmış geoloji-kəşfiyyat və yanaşı istismar işlərindən ibarət olmuşdur. Elə bu dövrdə bir

sıra qeyri-filiz yataqları barit, kükürd kolçedanı, odadavamlı gillər və s. istismara cəlb olunmuşdur. Geoloji -kəşfiyyat işlərinin inkişafında köklü dəyişikliklər ötən əsrin 50-ci illərinin ortalarından sonra baş vermişdir. Belə ki, ehtiyatları Azərbaycan Respublikasının faydalı qazıntılarının Dövlət balansında qeydə alınan filiz, qeyri-filiz, yeraltı şirin və termal su yataqlarının əksəriyyəti məhz bu dövrdə kəşf olunmuş və ehtiyatları təsdiq olunmuşdur. Bununla da polimetal filizlərin, yodlu-bromlu suların, bentonit gillərinin, üzlük və dekorativ daşların, tikinti və yol tikintisi işləri üçün xammalın ehtiyatları xeyli artırılmışdır.

Böyük Qafqazın cənub yamaclarının Azərbaycan hissəsində (Balakən-Zaqatala filiz rayonu) Katex, Kasdağ və nəhəng Filizçay polimetal yataqlarının ehtiyatlarının təsdiq olunması ilə respublikanın şimal-qərbində əlvan metallurgiyanın nəhəng mineral-xammal bazasının yaradılması başa çatdırılmışdır. Elə həmin regionda sonralar Saqator mis-sink və Mazımçay mis-kolçedan yataqları aşkar edilmiş və sənaye perspektivləri qiymətləndirilmişdir ki, onların mis və sink ehtiyatları gələcək dağ-mədən müəssisəsinin əlavə xammal bazası olacaqdır.

Kiçik Qafqazın Azərbaycan hissəsində (Gədəbəy, Qarabağ, Zəngilan və Ordubad filiz rayonları) sənaye ehtiyatları təsdiq olunmuş Qızılbulaq mis-qızıl yatağı , Vejnəli qızıl, Qaradağ mis-porfir, Ağyurd mis-qızıl yataqlarında kəşfiyyat işləri başa aparılmış, Qoşa qızıl yatağının və Dəmirli mis-porfir filizləri yataqlarının sənaye perspektivləri qiymətləndirilmişdir.

Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra aşkar olunmuş Çovdar və əvvəllər aşkar olunan Gədəbəy qızıl filizləri yataqlarında kəşfiyyat işləri aparılmış, Kürəkçay və Əlincəçay hövzələrinin səpinti qızıla perspektivliyi aşkar edilmiş və qiymətləndirilmişdir.

Müxtəlif növ qeyri-filiz xammalı və tikinti materiallarının bir çox yataqları şüşə sənayesi üçün yararlı dolomit və kvars qumları, bentonit gilləri, kaolin, üzlük daşı, mişar daşı, qum-çınqıl qarışığı, tikinti qumları, kərpic, keramzit, aqloporit və drenaj boruları və bəndlərin tikinti üçün yararlı gil xammalı və s. kəşf olunmuş və sənaye istismarına verilmişdir. Respublika ərazisi üçün ənənəvi olmayan seolit, vermikulit, çini daşı və s. kimi xammal növlərinin yataqları aşkar edilmişdir.

İki yodlu-bromlu sular yatağının – Abşeron yarımadasında Binə-Hövsan muldası və Neftçala sahəsinin dəqiq kəşfiyyatı başa çatdırılmış və çox böyük miqdarda ehtiyatları təsdiq edilmişdir.

Respublikamızda qızılçıxarma sənayesinin yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının bir sıra qızıl yataqlarının kəşfiyyatı və işlənməsi barədə" 1996-cı il 5 fevral tarixli sərəncamına uyğun olaraq 1997-ci il avqustun 20-də keçmiş "Azərqızıl" Dövlət Şirkəti ilə ABŞ-ın "RV İnvestment Qroup Services LLC" arasında Gədəbəy, Qoşa, Ordubad qrupu (Pyəzbaşı, Ağyurd, Şəkərdərə, Kələki), Söyüdlü, Qızılbulaq və Vejnəli perspektivli qızıl yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş imzalanmışdır.

2009-cu ildən Gədəbəy qızıl-mis zavodu işə salınmışdır. Hazırda Gədəbəy və Qoşa qızıl yataqlarında istismar işləri aparılır.

2006-cı il dekabır ayının 30-da Azərbaycan Respublikası hökuməti ilə "Londeks Resorsız S.A.", "Uill end Meyris S.A." və "Farqeyt Mayninq Korpereyşn" şirkətləri arasında Azərbaycan Respublikasında Qaradağ, Çovdar, Göydağ, Dağkəsəmən filiz sahələrinin, Köhnəmədən sahəsinin və Kürəkçay hövzəsi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş imzalanmışdır. Hazırda bu şirkətin səlahiyyətləri sonradan yaradılmış "AzerGold" QSC-yə verilmişdir.

Çovdar qızıl yatağında 2013-cü ildən istismar işlərinə başlanılmışdır.

Ölkəmizin mineral-xammal bazasının mövcud vəziyyəti və perspektivləri Azərbaycan Respublikasının dağ-mədən sənayesinin inkişaf etdirilməsinə milli və xarici investisiyaları cəlb etməklə yaxın gələcəkdə dağ-mədən sənaye məhsulları və xammallının dünya bazarına inteqrasiya olunmasına geniş imkanlar yaradır.

Xəzəryanı sahədə Xudat-Xaçmaz termal sular yatağının dəqiq kəşfiyyatı aparılmış və sənaye ehtiyatları təsdiq edilmişdir.

Azərbaycan geoloqlarının fədakar əməyi sayəsində ötən müddət ərzində 1098 sayda (o cümlədən 55 filiz, 139 qeyri filiz, 796 inşaat materialları və 108 yeraltı su) müxtəlif filiz, qeyri-fılıiz, tikinti materialları, mineral, termal, yodlu-bromlu və şirin yeraltı su yataqları aşkar edilmiş, ehtiyatları təsdiq edilərək balansa qəbul edilmişdir.